

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 157 (24.044)

20 avqust 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 2022-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2022-ci ilin yanvar-iyul aylarında 1 milyard 652 milyon 55 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 2,3 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz artaraq 3563,5 manat olmuşdur.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 2022-ci ilin yanvar-iyul aylarında 682 milyon 400 min 400 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2022-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 605 milyon 639 min 900 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 577 milyon 360 min 400 manatı və ya 95,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

2022-ci ilin yanvar-iyul aylarında 279 milyon 683 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 15257 ton, süd istehsalı 63370 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 7,9 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır.

***

2022-ci ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 35 milyon 767 min 700 manat olmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətlərinin dəyəri 26 milyon 402 min 300 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,6 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 165 milyon 65 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 30,1 faiz çoxdur. Verilmiş kreditlərin 13 milyon 650 min 100 manatı və yaxud 8,3 faizi qısamüddətli, 151 milyon 415 min 400 manatı və yaxud 91,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

2022-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 593,4 manata çatdırılmışdır ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,7 faiz çoxdur.

***

1 iyul 2022-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1827 nəfər artaraq 464 min 136 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## *“Ailə rifahı naminə qadınları maarifləndirək”* layihəsinin icrası ilə bağlı yekun tədbir keçirilib



*İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin maliyyələşdirdiyi Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Ailə rifahı naminə qadınları maarifləndirək” layihəsinin icrası ilə bağlı tədbir keçirilmişdir.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək muxtar respublikada dövlət qadın siyasətinin əsas prioritet istiqaməti olan qadınların məşğulluğu haqqında ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq məqsədyönlü tədbirlər davam etdirilir, qadınların mikro və makrosahibkar olması üçün güzəştli şərtlərlə kreditlər verilir, dövlət tərəfindən müvafiq dəstək göstərilir.

Bildirilmişdir ki, ötən illərdə olduğu kimi Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qadınların sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi ilə bağlı cari ildə də muxtar respublikada yaşayan qadınlara iqtisadi dəstək göstərilməsi məqsədilə növbəti layihənin icrası təmin olunmuşdur.

Komitə sədri bildirmişdir ki, bununla əlaqədar milli və xalq tətbiqi sənət nümunələri, sahibkarlıq və digər fəaliyyət sahələri ilə məşğul olmaq istəyən istedadlı qadınlar, xüsusən də qayğıya ehtiyacı olan ailələrin qadınları haqqında müvafiq orqanlardan alınan və komitəyə edilən şifahi müraciətlər əsasında məlumatlar toplanmışdır. Əlavə olaraq müvafiq qadınlar komitəyə dəvət olunmuş, gələcəkdə məşğul olmaq istədikləri sahə ilə bağlı ətraflı söhbət aparılmış və müvafiq təlimlərdə iştirak etmək istəyən 87 qadın haqqında məlumat hazırlanmışdır.

Layihədə şəhid ailəsi olan qadınlar, sağlamlıq imkanları məhdud qadınlar, ailə başçısı olan qadınlar, nikahına xitam verilən qadınlar, aztəminatlı ailədən olan qadınlar və istedadlı qadınlar olmaqla, 70 qadın iştirak etmişdir. Muxtar respublikanın şəhər və rayonlarından olan 50 aztəminatlı ailənin üzvü və ya sağlamlıq imkanları məhdud olan qadınların cəlb olunması və hər bir nəfərə 760 GHF (1360 AZN) məbləğində sərmayə kapitalının verilməsi nəzərdə tutulmuşdur. Qadınlara veriləcək sərmayə kapitalının ümumi dəyəri isə 70000 manat olmuşdur. Sərmayə kapitalının verilməsi zamanı fəaliyyət sahəsinin qurulmasına görə qeyd olunan vəsaitdən artıq, az və ya qeyd olunan sərmayə kapitalının məbləğində vəsait bölgüsü aparılmış, qadınların sayı 50 nəfərdən 64 nəfərə çatdırılmışdır.

Layihə çərçivəsində maliyyə savadlılığı üzrə 3 dəfə “Gələcəyini planlaşdır!” və 1 dəfə “Sahibkar ol!” təlimləri keçirilmişdir. Təlimlərdə muxtar respublikanın bütün rayonlarından olmaqla sağlamlıq imkanları məhdud, şəhid və aztəminatlı ailədən olan qadınlar iştirak etmiş, onlara sertifikatlar təqdim olunmuşdur.

Ramilə Seyidova məlumat vermişdir ki, sərmayə kapitalı alan 64 qadının məşğul olacağı sahələr üzrə siyahı hazırlanmış və Azərbaycan Mikromaliyyə Assosiasiyasına təqdim edilmişdir. Verilən 70 min manat sərmayə kapitalının 53 min 850 manatı (77 faizi) ailə təsərrüfatlarının qurulması üçün, 16 min 150 manatı isə (23 faizi) digər fəaliyyət sahələri (dərzilik, toxuculuq, bərbərlik, xalçaçılıq, dekorativ-tətbiqi sənət sahəsi və sair) üçün verilmişdir.

Komitə sədri çıxışının yekununda qadınların sahibkar kimi formalaşmasına və onların məşğulluqlarının təmin olunmasına, həmçinin bu layihənin yüksək səviyyədə, uğurla həyata keçirilməsinə göstərdiyi diqqət, qayğı və dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirmişdir.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə haqqında ətraflı məlumat vermiş, muxtar respublikada qadınlara göstərilən yüksək diqqət və qayğıdan ətraflı bəhs etmiş, bu cür layihələrin muxtar respublikada nəzərdə tutulan vaxtda və uğurla icra olunduğunu diqqətə çatdırmışdır.

Layihə iştirakçıları Misri Bağırova, Təhminə Əliyeva və Əsmər Baxşəliyeva çıxış edərək onlara və ailələrinə göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

Sonra tədbirdə Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən qadınlar arasında bağlanmış müqavilələrin təqdimolunma mərasimi keçirilmiş, qadınlara verilmiş sərmayə kapitalının dəyərində alınmış aktivlərin bəzilərinin nümayişi təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada soyuducu anbarlara məhsul tədarükü davam etdirilir



İyul ayından etibarən Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması və satışı üzrə müasir soyuducu anbarlara meyvə və tərəvəzin qəbulu aparılır. Kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə bu günədək anbarlara tələbatdan çox istehsal edilmiş 6700 tona yaxın kartof məhsulu qəbul olunub. Bunun da 500 tonu Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi tərəfindən tədarük olunub. Hazırda soyuducu anbarlar tərəfindən kartof məhsulunun 1-ci növü 40, 2-ci növü 25, qarışıq növü isə 30 qəpiyə tədarük edilir.

Muxtar respublikada ümumi tutumu 21 min 610 ton olan 48 soyuducu anbar mövcuddur ki, bu anbarlardan ümumi tutumu 13 min ton olan 31 soyuducu anbar meyvə-tərəvəz tədarükü təyinatlıdır. Bu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı artırmağa imkan verir. Eyni zamanda anbarların hər biri yeni iş yerlərinin açılması ilə yanaşı, əhalinin meyvə-tərəvəz məhsullarına tələbatının bütün fəsillərdə yerli istehsal hesabına ödənilməsində mühüm rola malikdir.

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən soyuducu anbarlara tədarük olunan və istixana komplekslərində yetişdirilən məhsullardan 45 halda orta nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilib, 378 halda səyyar laboratoriya yoxlamaları aparılıb və göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilib.

Qeyd edək ki, muxtar respublikada yaradılmış soyuducu anbar təsərrüfatı payız-qış aylarında əhalinin istehlakında mühüm paya malik olan yerli meyvə və tərəvəz məhsullarının münasib qiymətlərlə satışa çıxarılmasına imkan verir. Bundan əlavə, soyuducu anbarlar, əsasən, muxtar respublikada yetişdirilən meyvə-tərəvəz hesabına doldurulduğundan aqrar sahənin inkişafına, istehsalçıların öz işini genişləndirməsinə stimul yaradır. Həmçinin soyuducu anbarların muxtar respublikanın, demək olar ki, bütün rayonlarında olması meyvə-tərəvəz məhsullarının daşıma xərclərinin və müvafiq olaraq satış qiymətlərinin də aşağı salınmasına təsir edir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Təbriz küçəsində yol təmir işləri aparılır



Bu gün muxtar respublikamızın bütün sahələrində qeydə alınan inkişaf, tərəqqi, həyata keçirilən sosial tədbirlər, habelə tikinti-quruculuq sahəsində əldə edilən uğurlar ölkəmizdə nümunəvi yol mədəniyyətinin formalaşmasına da əsas verir. Hər il yeni yolların salınması da bunun ifadəsidir. Cari ildə də belə tədbirlər davam etdirilir. Hazırda Naxçıvan şəhərinin Təbriz küçəsində yol bərpa işləri həyata keçirilir. Belə ki, təxminən, 300 metrdən artıq magistral yolda köhnə asfalt örtük sökülərək yeni ikiqatlı asfalt örtüklə əvəz olunur. Yolun müəyyən bir hissəsində asfaltlama işləri yekunlaşmaq üzrədir, qalan hissələrdə isə işlər sürətlə davam edir. Qeyd edək ki, yol kənarlarındakı yararsız bordürlər də sökülərək yeniləri ilə əvəz olunur. Bərpa işlərini isə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin Naxçıvan Şəhər Yol Təmir-Tikinti İdarəsi həyata keçirir.

**Məcid RƏŞADƏTOĞLU**

*...Nə qədər cəld tərpənsəm də, operativ işləməyə səy göstərsəm də, Şərur haqqında hazırladığım bu yazının əl-ayağını mümkün qədər tez yığışdırmağa çalışsam da, əmin olduğum şəksiz bir həqiqət var: bu yazı qəzetdə çap olunana qədər Şərurda, necə deyərlər, az qala bir qəzetlik yenilik olacaq. Məsələnin sirri, sehri, mahiyyəti ondadır ki, Şərurda həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq və quruculuq işlərinin sürəti, həyata keçirilən tədbirlərin dinamikası ilə ayaqlaşmaq qeyri-mümkündür. Səbəbi isə çox sadədir: Şərurda sürət və dinamika aylarla, illərlə yox, həftələrlə, günlərlə, hətta saatlarla ölçülür.*

*İnkişaf edən bölgələrimiz*

# Hər gün bir yenilik Şərurun hüsnünü daha da gözəlləşdirir



Bütün bu inkişaf, irəliləyiş boş yerdən yaranmayıb, ümummilli liderimiz Heydər Əliyevin otuz ildən artıq bir müddət ərzində qurduğu, yaratdığı iqtisadi baza günümüzdə də davam etməkdədir. Ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə bütün respublika kimi, Şərur da sürətli inkişaf yoluna qədəm qoyub. Əhalinin gün-güzəranı, yaşayış tərzi də o illərdə irəliyə doğru xeyli dəyişib. Möhrə, palçıq, uçuq daxmaların əvəzində kəndlərdə mişardaşından gözəl və yaraşıqlı, ikimərtəbəli şəxsi evlər tikilib. Dövlət səviyyəsində yaşayış məskənlərinin, xüsusən də kəndlərin sosial-iqtisadi problemlərinin həlli diqqət mərkəzində saxlanılıb. Kəndlərin əksəriyyətində müasirtipli, hər cür şəraiti olan iki-üçmərtəbəli təhsil ocaqları ucaldılıb, səhiyyə, mədəniyyət, ticarət, iaşə, məişət xidməti müəssisələri inşa olunub. İstehsalatda fərqlənən neçə-neçə əmək adamı yüksək dövlət mükafatlarına, fəxri adlara layiq görülüb.

Müdriklər həmişə keçmişə nəzər salır, onu öyrənirlər. Azərbaycanın isə tarixi qədimdir, qəhrəmanlıqlarla dolu şanlı səhifələri var. Ancaq tarix tarixdir, necə deyərlər, onun yaxşısı da, pisi də özümüzünküdür.



Bu mənada, ötən əsrin 90-cı illərindəki hadisələr hər birimiz üçün ibrət dərsi olmalıdır. O zaman hərc-mərclik, xaos, özbaşınalıq hökm sürürdü. Müstəqilliyə təzəcə qovuşmuş ölkəyə təcrübəsiz, səriştəsiz adamlar rəhbərlik edirdilər. Digər bölgələrimiz kimi, Şərur rayonu da acınacaqlı günlərini yaşayırdı. Dinc əhali boğaza yığılmışdı. Hətta hava qaraldıqdan sonra küçəyə çıxmaq təhlükəli idi. SSRİ-nin süqutu ilə müttəfiq respublikalar arasında iqtisadi əlaqələrin kəsilməsi nəticəsində əksər müəssisələr fəaliyyətini dayandırmış, adamlar işsiz qalmışdılar. Rayon camaatı çıxış yolunu həyatın sınaqlarından mərdliklə çıxmış, bütün varlığı ilə doğma xalqına bağlı olan ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdülər. Belə də oldu, ulu öndər respublikada hakimiyyətə qayıtdı. Onun polad iradəsi, uzaqgörən siyasəti, gərgin əməyi sayəsində həyat addım-addım məcrasına düşməyə başladı, həyat canlandı, insanlar rahat nəfəs almağa başladı, xüsusilə 1995-ci ildən, yəni ölkədə ictimai-siyasi sabitlik tam bərpa olunandan sonra bu rayonun da sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında yeni intibah dövrü başlandı.

*Hər sahədə tərəqqi, hər sahədə yüksəliş var*

Təbii ki, muxtar respublika Ali Məclisi Sədrinin görülüb başa çatdırılmış işlərə verdiyi yüksək qiymət şərurlulara qol-qanad verir, onları ikiqat, üçqat səy və fədakarlıqla çalışmağa ruhlandırır. Bütün bunlar isə özünü cari ilin birinci yarısında əldə edilmiş konkret nəticələrdə göstərir. Rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün cari ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 39 milyon 656,8 min manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çox vəsait yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsaitin dəyəri 1 faiz artaraq 37 milyon 467,7 min manat təşkil etmişdir.

Bu dövrdə, ulu öndər Heydər



Əliyevin anadan olmasının 99-cu ildönümündə rayonumuzda yeni inşa edilən Mədəniyyət Sarayının və yenidən qurulması başa çatan Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilmişdir.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Şərur rayonunda yerləşən 1-ci sərhəd komendantlığının xidməti və yaşayış kompleksi istifadəyə verilmişdir. Hazırda isə Alışar kəndində "N" Sərhəd Zastavasında tikinti işləri davam etdirilir.

Cari ildə Şərurda sənaye məhəlləsinin, avtovağzal binasının, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin və Uşaq Kitabxanasının, Universam binasının, mərkəzi stadionun, Heydər Parkının, Şərur şəhərinin Mikayıl Müşfiq küçəsindəki yaşayış binalarının, 3 meqavatlıq Günəş Elektrik Stansiyasının, 6 mərtəbədən ibarət 40 mənzilli yaşayış binasının, dəmir yolu idarəsinin dövriyyə deposunun inzibati binası və təmir sexinin tikintisi, yenidən qurulması və əsaslı təmir işləri davam etdirilir.

Tikinti-quruculuq işləri Şərurun kəndlərində də geniş vüsət alıb. Həmzəli kəndində 198, Alışarda 342, Vərməziyarda 414 şagird yerlik məktəb binaları yenidən qurulur, Həmzəli və Vərməziyarda kənd və xidmət mərkəzləri, Axurada kənd mərkəzi və həkim ambulatoriyası inşa edilir.

Muxtar respublikamızda geniş vüsət almış quruculuq tədbirləri sırasında yeni yolların çəkilişi, körpülərin salınması diqqət mərkəzində saxlanılır. Xüsusən də ucqar dağ və sərhəd yaşayış məntəqələrimizə gedən yollar bu gün öz rahatlığı ilə seçilir. Səkkiz yaşayış məntəqəsini birləşdirən Xanlıqlar-Dəmirçi avtomobil yolu, Xanlıqlar-Yuxarı Daşarx köməkçi avtomobil yolu, Həmzəli, Axura və Alışar kənddaxili avtomobil yollarında tikinti işləri sürətlə davam edir.

Bir sözlə, Şərur bu gün dinamik inkişaf yolundadır. Rayon mərkəzi ilə yanaşı, yaxın və uzaq kəndlərdə də hər gün bir yenilik görünür, yaşayış məntəqələri daha gözəl, daha yaraşıqlı görkəm alır.





*Aqrar sahə: göstəricilər uğurludur*

Şərurun iqtisadi həyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən bir az da bu sahə haqqında yazmaq istərdim. Rayonda aqrar sahədə qazanılan uğurlar ildən-ilə artmaqdadır. Kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara güzəşt və kreditlərin verilməsi bu sahənin inkişafına zəmin yaradıb. Belə ki, kənd təsərrüfatı ilə məşğul olan istehsalçılara "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi dəyəri 248 min manatdan yuxarı olan 28 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqları lizinq yolu ilə satılmış, sahələrdə məhsuldarlığın artırılması üçün torpaq mülkiyyətçilərinə dövlət tərəfindən 2 min 894 ton gübrənin verilməsi təmin olunmuşdur. Göründüyü kimi, aqrar sahənin inkişafına yönəldilmiş Dövlət proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün yaradılmış əlverişli şəraitin nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının maşın və mexanizmlərlə, toxum və gübrə ilə təminatı yaxşılaşdırılıb.

Görülən məqsədyönlü tədbirlər nəticəsində bu ilin məhsulu üçün 16 min 234 hektar sahədə əkin aparılıb ki, bunun da 4 min 38 hektarını taxıl zəmiləri təşkil edib. Biçin vaxtında başa çatdırılıb, 16 min 484 ton taxıl istehsal olunub. Bu, hər hektardan 40,8 sentner məhsul deməkdir. Əkin sahəsinin 4 min 367 hektarını dənli və dənli-paxlalı bitkilər, 1032 hektarını dən üçün qarğıdalı, 68 hektarını dən üçün günəbaxan, 2 min 58 hektarını tərəvəz bitkiləri, 488 hektarını ərzaq üçün bostan bitkiləri, 1376 hektarını kartof, 8 hektarını tütün, 4 min 884 hektarını cari ildə əkilmiş çoxillik otlar, 1953 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq yaz aylarında 6,7 hektar yeni bağ salınıb, 4,5 hektar meyvə bağında bərpa işləri aparılıb.

İndiyədək bağlardan 9 min 612 ton meyvə dərilib, kartof və tərəvəz yığımı davam edir.

*"Sənaye ili": 2022-ci il*

Muxtar respublikanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin davamlı inkişafına və şaxələndirilməsinə nail olmaqdır. Bu sahədə görülən tədbirlərin davamı olaraq 2022-ci ilin muxtar respublikada "Sənaye ili" elan edilməsi bu sahədə ixracyönümlü məhsul istehsalının təşviqinə, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulmasına və yeni məhsul növlərinin istehsalına şərait yaratmışdır.

Cari ilin ilk altı ayında rayonda 53 milyon 761 min 900 manatlıq sənaye məhsulu istehsalı qeydə alınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çoxdur. Bu dövr ərzində rayonun sənaye müəssisələrində 3 min 449 nəfər işçi çalışmışdır ki, onların da ortaaylıq əməkhaqları ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz artaraq 468 manat olmuşdur.

Bəhs olunan müddətdə Şərur Sənaye Məhəlləsində işlər sürətlə davam etdirilmişdir. Hazırda 3 istehsal korpusundan ibarət olan sənaye məhəlləsində ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel istehsalı sahələri fəaliyyət göstərir. Həmçinin corab istehsalı, məktəbli ləvazimatları, kağız kisə, karton tara, süd məhsullarının emalı və qablaşdırılması, meyvə-tərəvəzin konservləşdirilməsi, qurudulması və bitki yağı istehsalı sahəsinin qurulması istiqamətində işlər davam etdirilir.

Sənaye məhəlləsində əsas istehsal sahələrindən biri olacaq bitki yağlarının istehsalı müəssisəsinin yerli xammalla təmin etmək üçün rayonda qarğıdalı və günəbaxan əkinləri diqqətdə saxlanılıb.

*Faktlar, həqiqətlər*

Bildiyimiz kimi, həqiqət fakta söykənir. Beləliklə, iqtisadi, sosial və mədəni sahələrdə əldə olunan yüksəlişi əks etdirən yüzlərlə fakt və rəqəmlərdən yalnız bir hissəsini oxucuların nəzərinə çatdırıram.

2022-ci ilin birinci yarısında keçən ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı məhsulları 2,9 faiz artaraq 58 milyon 581 min manat, pərakəndə əmtəə dövriyyəsi 1,6 faiz artaraq 169 milyon 69 min 600 manat, əhaliyə göstərilən pullu xidmətlər 1,6 faiz artaraq 21 milyon 764 min 500 manat, sərnişin və yük daşınması 1,6 faiz artaraq 2 milyon 680 min 300 manat gəlir əldə edilmişdir. Tikinti işlərinin həcmi 1 faiz artaraq 37 milyon 467 min 700 manat olmuşdur. Bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 8 faiz artaraq 531,5 manat təşkil etmişdir. 2022-ci ilin yanvar-iyun aylarında rayonda dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 14 layihə üzrə istehsal obyektləri yaradılmış, 11 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilmişdir.

İlin birinci yarısında ötən ilin müvafiq dövrünə nisbətən informasiya və rabitə müəssisələri tərəfindən 1,3 faiz çox xidmət göstərilmişdir. Cari ilin ilk 6 ayında pensiyaların vaxtında ödənilməsi təmin edilmiş, 17 milyon 686 min manat məcburi dövlət sosial sığortahaqqı yığılmışdır. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz çoxdur. Torpaqlarımızın işğaldan azad olunması uğrunda sağlamlıq imkanlarını itirmiş 4 qazi mənzillə təmin olunmuş, 4 qaziyə minik avtomobili təqdim edilmiş, 3 şəhid ailəsinin isə mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə evlərində təmir-bərpa işləri aparılmışdır. Həmçinin II Qarabağ müharibəsində şəhid olmuş 38 şəhidin ailəsinə, 19 qaziyə və 24 nəfər müharibə iştirakçısına Azərbaycan Respublikasının orden və medalları təqdim olunmuşdur.

Əlbəttə, cari ilin birinci yarısında Şərurda görülmüş bütün işləri bir qəzet məqaləsi ilə tam şəkildə, ətraflı təsvir və təhlil etmək imkan xaricindədir. Sadəcə, bütün bunları ümumiləşmiş şəkildə birinci yarım ilin uğurlu yekunu, növbəti ayların isə başlanğıcı adlandırmaq daha doğru olar.

*Bəli, Şərurda həyat qaynayır. Bu gün çəkilən zəhmət, axıdılan alın təri tezliklə öz fərəhli bəhrələrini verir, daş üstə qoyulan hər daş gözoxşayan binaya çevrilir, əkilən hər ağac, hər gül kolu, abadlaşan hər küçə, yenidən qurulan hər park Şərurun gözəlliyinə yeni naxışlar vurur. Görülən işlərin miqyası və dinamizmi, adamların yüksək əhvali-ruhiyyəsi, ümumi yüksəliş ab-havası onu göstərir ki, sosial-iqtisadi inkişafımıza xidmət edən proqramlar uğurla həyata keçirilir: yetər ki, məqsədin aydın, niyyətin xoş olsun. Sonda yadıma son vaxtlar Şərurda tez-tez eşitdiyim sözlər düşür: belə getsə, bir-iki ilə Şəruru nəinki qonaqlar, heç özümüz də tanımayacağıq.*

**Heydər MƏMMƏDOV**

***"Şərurun səsi" qəzetinin redaktoru***

# Muxtar respublika sərhədləri etibarlı müdafiə edilir



*Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda ilk milli sərhəd qurumları yaradılmışdır.*

1988-ci ildən etibarən avtomobil və dəmir yolu ermənilər tərəfindən



bağlanan, iqtisadi blokadaya salınan Naxçıvan Muxtar Respublikasının sərhədyanı yaşayış məntəqələri erməni işğalçıları tərəfindən mütəmadi şəkildə atəşə tutulur, basqınlara və talanlara məruz qalırdı. Muxtar respublikanın ərazisində olan 75-ci motoatıcı diviziyanın və 41-ci sərhəd dəstəsinin hərbçiləri isə Moskvanın siyasətinə uyğun olaraq Naxçıvanı erməni təcavüzündən qorumurdu. Belə bir vəziyyət muxtar respublikanın müdafiəsinin milli qüvvələr hesabına təşkil olunması istiqamətində təcili və təxirəsalınmaz tədbirlərin görülməsini tələb edirdi.

Heç təsadüfi deyildir ki, uzaqgörən dövlət xadimi Ali Məclisin Sədri seçildikdən cəmi dörd gün sonra 1991-ci il sentyabrın 7-də Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdir. Bununla da Azərbaycanda vahid komandanlığa tabe olan ilk milli ordunun əsası qoyulmuşdur. 1992-ci il avqustun 22-də Naxçıvandakı 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdır. 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunmuş, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilmişdir.

Ulu öndər Heydər Əliyev Naxçıvanda ilk sərhəd dəstəsinin yaradılması barədə demişdir: ***“Azərbaycan müstəqillik yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən burada Azərbaycanın ərazisindən ayrı düşmüş və o illərdə, elə indi də blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. 41 nömrəli sərhəd dəstəsinin bütün əmlakı, bütün qurğular, silahlar, sursatlar, ləvazimatlar, texnika Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi... Əminəm ki, Naxçıvan sərhəd dəstəsi günü-gündən inkişaf edəcək, sərhədlərimiz etibarlı şəkildə qorunacaqdır”.***

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə ali rəhbərliyə ikinci qayıdışından sonra da bu sahədə işlər davam etdirilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir. Ulu öndərin 1996-cı ilin oktyabrında Naxçıvan Muxtar Respublikasına 3 günlük səfəri zamanı sərhəd dəstəsinə gəlməsi və şəxsi heyət qarşısında çıxış etməsi sərhəd dəstəsinin tarixinə ən əlamətdar hadisələrdən biri kimi yazılıb. Müdrik siyasətçi sərhəd dəstəsinə gəlməklə bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikasının sərhədlərinin mühafizəsinə xüsusi diqqət və qayğı



göstərir. Ulu öndər sərhəd dəstəsinin fəaliyyətindən razılıqla danışaraq demişdir: ***“Sizin hamınız zabit heyəti və şəxsi heyət çox iş görmüş, yararlı sərhəd dəstəsi yaratmısınız. Gördüyünüz bu işlərə görə sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əldə etdiyiniz nailiyyətlər daha da artacaq. Burada Azərbaycan Silahlı Qüvvələrinin böyük bir dəstəsini nümunəvi dəstəyə çevirəcək, qoruyacaqsınız. Mən buna əminəm”.***

Bu gün isə ulu öndərin siyasi irsini uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğı nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir.



***“Sərhədlərimizin qorunması təhlükəsizliyimizin təmin edilməsi deməkdir”***, – deyən ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmiş, maddi-texniki təminat və döyüş hazırlığı artırılmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında Sərhəd Diviziyası, 2015-ci il 17 avqust tarixli Fərmanı ilə “Naxçıvan” Əlahiddə Sərhəd Di-



viziyası yaradılmış, Naxçıvanda sərhədlərimizin mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoymuşdur.

Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün də muxtar respublikamızda uğurla davam etdirilir, hərbi qulluqçulara hərtərəfli dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Göstərilən diqqət və qayğı nəticəsində qərargah binası, xəstəxana, müasir tələblərə cavab verən uşaq bağçası tikilmiş, mərkəzləşmiş istilik sistemi yaradılmış, sərhədçi ailələri üçün istirahət parkı salınmış, hamam-camaşırxana kompleksi yenidən qurulmuş, çörək sexi istifadəyə verilmişdir. Həmçinin “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının ərazisində abadlıq işləri aparılmış, avtomobil parkında təmir emalatxanaları, anbarlar, avtomobillərin saxlanılması üçün yeni saxlanclar, qarovul və qazanxana binaları inşa edilmişdir. 2007-2012-ci illər ərzində ən müasir tələblərə uyğun 9 sərhəd zastavası kompleks şəkildə tikilmiş, Culfa sərhəd komendantlığı yenidən qurularaq istifadəyə verilmişdir. Hərbi infrastruktur quruculuğu istiqamətində görülən işlər son illər də diqqət mərkəzində saxlanılmış, 2018-ci ildə Qaraçuq sərhəd komendantlığı, 2019-2021-ci illər ərzində 3-cü, 6-cı, 8-ci və 15-ci sərhəd zastavaları ən müasir şəkildə inşa edilmiş və sərhədçilərin istifadəsinə verilmişdir. 12-ci sərhəd zastavasının içməli su ilə təmin olunması məqsədilə artezian quyusu qazılmış, “Ordubad” sərhəd komendantlığı, 22-ci və 23-cü sərhəd zastavaları əsaslı təmir olunmuşdur. Cari ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında ən müasir tələblərə cavab verən yeni əsgər yataqxanası, idman kompleksi, “Şərur” sərhəd komendantlığının xidməti-yaşayış kompleksi sərhədçilərin istifadəsinə verilmişdir. 5-ci sərhəd zastavasının inşası başa çatdırılmışdır. Dövlət



sərhədinin etibarlı mühafizəsinin təmin olunması məqsədilə dövlət sərhədi boyunca siqnalizasiya sistemi yaradılmış və müasirtipli kameralar quraşdırılmışdır. Müasir tələblərə uyğun yeni qərargah binaları, əsgər yataqxanaları, anbarlar, hamam-camaşırxana, yardımçı binalar, sərhədçi ailələri üçün tam şəraitli yaşayış binaları tikilib istifadəyə verilmişdir.

Şəxsi heyətin təminat və təchizatının yaxşılaşdırılması, sərhəd zastavalarının müasir texnika və avadanlıqlarla təmin edilməsi də daim diqqət mərkəzində saxlanılır. Yaradılan müasir infrastruktur və maddi-texniki təchizat döyüş hazırlığının yüksəldilməsinə və peşəkar kadr təminatına öz töhfəsini vermişdir. Sərhəd komendantlıqlarının xidməti ərazilərində qarşılıqlı fəaliyyət planına əsasən “Dövlət sərhədinin pozulması halları baş verdikdə sərhəd bölmələrinin hərəkəti və sərhəd axtarışının keçirilməsi” mövzusunda Sərhəd Diviziyasının sərhəd komendantlıqlarının sərhəd zastavaları və Çevik əməliyyat taborunun şəxsi heyətinin iştirakı ilə təlim məşqləri keçirilmişdir. Təlimdə əldə olunan təcrübə, şəxsi heyətin qazandığı vərdişlər dövlət sərhədinin etibarlı mühafizəsinə təminat yaratmışdır. Müxtəlif ixtisaslar üzrə Mərkəzi Qərargahda keçirilən təlim toplanışlarında zabit heyətinin hazırlanması və təkmilləşdirilməsində Sərhəd Diviziyasının aidiyyəti üzrə bölmələrinin iştirakı təmin olunmuşdur. Gizir hazırlığı və Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlıq kurslarında Sərhəd Diviziyası üçün mütəxəssislərin hazırlanması və bu kurslarda hərbi qulluqçuların təhsil alması təşkil olunmuşdur.

Bu gün hər bir sərhədçi ulu öndərimizin və müstəqilliyimizin əmanəti olan dövlət sərhədlərimizi ayıq-sayıq qorumaqla həm də beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, qaçaqmalçılığa qarşı mübarizə aparır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparmalı, fədakarlıq göstərməlidir”.***

*“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti yaradılan şərait və göstərilən yüksək qayğını daim öz üzərində hiss edərək daha da ruhlanır, bundan sonra da Azərbaycanın Naxçıvan Muxtar Respublikasındakı sərhədlərini etibarlı qoruyacaq, ayıq-sayıqlıq nümayiş etdirəcəkdir.*

***“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası***

## Avqust ayında 7 hərbi qulluqçuya dövlət icbari şəxsi sığorta ödənişləri verilib

Muxtar respublikada Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında və xidməti vəzifələrini yerinə yetirərkən sağlamlığını itirmiş şəxslərin rifah halının yüksəldilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür. Aidiyyəti şəxslərə dövlət icbari şəxsi sığortasının ödənilməsi də bu tədbirlərdən biridir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən avqust ayında dövlət icbari şəxsi sığorta ödənişini almaq hüququ yaranan 7 hərbi qulluqçuya ödənişlər həyata keçirilib. Bunlardan 3-ü vəfat etdiyinə görə onların vərəsələrinə, 3-nə sağlamlıq imkanlarının məhdudluğuna görə, 1-nə isə az ağır xəsarət aldığına görə sığorta ödənişi verilib. Dövlət icbari şəxsi sığorta ödənişinin həyata keçirilməsi üçün, ümumilikdə, 44 min 550 manat vəsait həmin şəxslərin bank hesablarına köçürülüb. Hərbi qulluqçulardan ikisi Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar sağlamlıq imkanları məhdudluğu müəyyən edilmiş şəxslərdir.

Qeyd edək ki, dövlət icbari şəxsi sığortası sığortaolunanların həyat və sağlamlığının qanunvericilikdə nəzərdə tutulmuş qaydada icbari formada sığorta olunmasına yönəldilmiş münasibətlər sistemidir. Sığortaolunanlar qanunvericilikdə göstərilən səbəblərdən həlak olduqda, xəsarət aldıqda və sağlamlıq imkanları məhdudluğu müəyyən edildikdə onlara dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişi verilir. Qanunvericiliyə uyğun olaraq hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası on bir min manat məbləğində həyata keçirilir və onlar müəyyən olunmuş faiz miqdarında sığorta ödənişi ilə təmin edilirlər.

Fond tərəfindən hərbi qulluqçuların və digər aidiyyəti şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası üzrə müvafiq işlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Uşaqlarımızın sağlam inkişafı muxtar respublikamızın prioritet istiqamətlərindəndir

***Muxtar respublikamızda fəaliyyət göstərən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin əsas qayəsi sağlamlıq imkanları məhdud şəxslərin informasiya texnologiyaları vasitəsilə sağlamlığının mühafizəsi və sosial müdafiəsi, onların cəmiyyətə, habelə sosial həyata inteqrasiyasını təşkil etməkdir. Mərkəz fiziki məhdudiyyətli şəxslərin həyat tərzini yaxşılaşdırmağa, onların sosial statusunu bərpa etməyə, eyni zamanda kommunikasiya vasitələrindən istifadə etməklə biliklərini artırmasına xidmət edir. Ötən günlərdə həssas qrupa daxil olan vətəndaşları yenidən cəmiyyətə qazandırmaq kimi xeyirxah bir vəzifəni yerinə yetirən mərkəzə yollandıq.***



Mərkəzin direktoru Minurə Musayeva söhbət zamanı dedi: “Regional İnformasiya Mərkəzi 2010-cu ildən fəaliyyət göstərir. Müasir informasiya texnologiyaları ilə təchiz olunan mərkəzdə məhdud fiziki imkanlı şəxslər üçün müxtəlif xidmətlər mövcuddur. Burada kinect oyunu, əmək terapiyası, təlim bərpa otaqları, əyləncəli oyun sahəsi, musiqi terapiyası, distant təhsil mərkəzi, defektoloji bölmə və filialları, eyni zamanda görmə qabiliyyəti məhdud şəxslər üçün audiokitabxana xidməti,





brayl kitabxana yaradılıb. Kitabxanada görmə qabiliyyəti məhdud şəxslər üçün “Könül işığı” və “Şəfəq” adlı brayl jurnallar dərc olunur.

Mərkəzə müraciət edən fiziki imkanları məhdud uşaqlar, ilk növbədə, psixoloji və tibbi müayinədən keçirildikdən sonra aidiyyəti bölmələrə yerləşdirilir. Onların içərisində autizm və daun sindromlu, serebral iflicli və nitqi qüsurlu şəxslər də var. Bununla yanaşı, mərkəzdə yalnız sindromlu və nitqi qüsurlu uşaqların deyil, həm də koordinasiya problemləri olan uşaqların da müalicəsi aparılır”.

Minurə xanım onu da bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na əsasən mərkəzdə 2021-ci ilin mart ayından etibarən “Kukla terapiyası” və “Nağıl terapiyası” fəaliyyət göstərir. Hər iki terapiya uşaqların sosiallaşması, cəmiyyətə inteqrasiyası, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynayır. Dövlət proqramının icrasına uyğun olaraq xüsusi psixoloji problemlərin, depressiya və aqressivliyin aradan qaldırılması məqsədilə mərkəzdə oyun terapiyasının da fəaliyyətinə başlanılıb.

Müsahibimiz qeyd etdi ki, göstərilən dövlət qayğısının digər bir nümunəsi audiokitabxana daxilində görmə qabiliyyəti məhdud şəxslər üçün “258” nömrəli telefon xidmətinin yaradılmasıdır. Bu xidmət həm də yetkin şəxslər üçün nəzərdə tutulub. Burada 1500-dən artıq ədəbiyyat dinləyicilərin istifadəsinə verilir və kitablar mütəmadi olaraq yenilənir.

Mərkəzdə müalicə alan uşaqların ailələrinə də xüsusi diqqət göstərilir. Belə ki, ailələrə psixoloji dəstək məqsədilə maarifləndirici seminarlar və seanslar təşkil olunur. Qarşıya qoyduğumuz digər bir məqsəd də mərkəzimizə peşəkar, bu sahədə uzun illər təcrübə qazanmış təlimçiləri dəvət etməkdir. Yaxın günlərdə Bakıdan Qüsursuz Nitq Mərkəzinin defektoloq və direktoru Esmira Qafarova xüsusi dəvətimiz əsasında mərkəzimizə gəldi, valideyn və mərkəz mütəxəssislərinə maarifləndirici seminar təşkil etdi. Bununla yanaşı, fiziki imkanları məhdud uşaqların inkişafı məqsədilə iki istiqamətdə – sosial və tibbi reabilitasiyalar aparılır. Müalicələrin ardıcıl aparılması effektiv nəticələr verir.

Mərkəzin psixopedaqoqu ***Bəyim Bağırova*** ilə də həmsöhbət olduq. Söhbət əsnasında müsahibimiz bildirdi ki, uşaqların mərkəzə qəbulundan sonra ilk mərhələdə problemin təyin edilməsi məsələsi ilə mütəxəssis kimi məşğul oluruq. İlk növbədə, uşağın psixoloji vəziyyətini təyin edib, uyğun olaraq müəyyən bölmələrə yönləndiririk. Uşağın nitq qabiliyyətini formalaşdırmaq üçün defektoloji bölmədə loqoped köməyilə masaj və təlimlər icra olunur. Həssas qrupa daxil olan uşaqlara öz potensiallarına uyğun proqramlar hazırlanır və fərdi şəkildə məşğul olunur. Təyin edilən proqramlar əsasında uşaqların dərketmə qabiliyyəti formalaşdırılır. Uşaqların psixoloji vəziyyətindən asılı olaraq testlər tərtib edilir. Testlər nəticəsində uşaqların sahib olduğu sindrom və ya nitq qüsuru müəyyənləşdirilir.

Mərkəzdə dərs saatı olan uşaqlar və valideynlərlə də görüşdük. Azyaşlı qızını mərkəzə müalicəyə gətirən Naxçıvan şəhər sakini ***Xanım Kərimova*** dedi: “Qızım Nur artıq 4 aydır ki, bu mərkəzdə müalicə alır. O, müəyyən sözləri düzgün tələffüz edə bilmirdi. Burada masaj və dərs proqramları öz nəticəsini verdi. Artıq demək olar ki, qızım bütün hərfləri düzgün tələffüz edir, nitqindəki problem hiss olunacaq dərəcədə azalıb. Onu da qeyd edim ki, nitqində problem olan şəxslərin sosiallaşması, insanlarla ünsiyyət yaratması müəyyən qədər çətin olur. Artıq Nur bu problemləri geridə qoyub. Bir valideyn kimi demək istəyirəm ki, heç bir valideyn bu cür hallarda qorxmasın. Məhz mərkəzdə bu çətinlikləri aradan qaldırmaq üçün psixoloji dəstək xidməti də göstərilir. Müalicələr də peşəkar şəkildə aparılır”.

Həmsöhbət olduğumuz digər bir valideyn isə şəhər sakini ***Aynur Niyazova*** idi. Buradakı müalicə prosesindən söz açan müsahibimiz bildirdi ki, nəvəsi Alparslanın kiçik yaşlarından nitq qüsuru var. Artıq iki aydır ki, bu reabilitasiya mərkəzinə müalicəyə gəlirlər. Onunla defektoloq və psixoloq, ixtisasları üzrə böyük təcrübə qazanmış mütəxəssislər yaxından məşğul olur. Burada keçirilən kurs öz müsbət təsirini göstərməyə başlayıb. Musiqi terapiyası sayəsində Alparslan artıq mahnılar oxuyur, sözləri düzgün tələffüz edir, səlis cümlələr qurur, bir sözlə, təlimlər onun inkişafına böyük təsir göstərir. Burada valideynlər üçün də lazımi şərait yaradılıb. Onlara da psixoloji dəstək göstərilir.

*Mərkəzdə keçirdiyimiz bir neçə saat ərzində bir daha aydın oldu ki, burada sağlamlıq imkanları məhdud uşaqların inkişafı, cəmiyyətə inteqrasiyası üçün nə lazımdırsa edilir. Bunu həmsöhbət olduğumuz valideynlərdən də eşitdik, burada yaradılan şəraitin əyani şəkildə şahidi olduq.*

**Aysel YUSİFZADƏ**
**Bülbül QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri***

*Həkim məsləhəti*

# Suda boğulma – profilaktikası və ilk yardım

*Yay fəslinin isti və bürkü havası insanları asudə vaxtlarını təbiətin qoynunda – yaşıllıq, meşə, xüsusilə su hövzələri kənarında keçirməyə vadar edir. Özünün təbii, estetik, ekoloji, psixoloji gözəllikləri ilə insanların zövqünü oxşayan yay fəsli, eyni zamanda yanıq, istivurma, günvurma, bayılma, yaralanma, ilan, əqrəb sancması və başqa tibbi problemlərdə də xali deyil. İsti iqlim üçün xas olan bədbəxt hadisələrdən biri də suda batma və boğulmalardır.*

Qoca, uşaq, yorğun, sərxoş, epileptik tutması, bayılması olan şəxslərin, hətta adi arxda, yağış gölməçəsində, vannada, üzüüstə yıxılaraq cüzi maye ilə boğulması da mümkündür. Bəzən çimərlik üçün hazırlanmayan təsadüfi su hövzələrində çimərkən müxtəlif zədələnmələr, ayağa nəyinsə batması, suya baş vurarkən alınan baş, onurğa zədələnmələri çox da dərin olmayan yerdə boğulma halları ilə nəticələnə bilər. Tənəffüs yollarının, həmçinin mədənin su, lil, müxtəlif yad cisimlərlə dolması tənəffüsün kəskin pozulmasına, yəni boğulmaya səbəb olur. Ancaq qəflətən soyuq suya düşmə, qorxu, həyəcan və sair nəticəsində səs tellərinin spazmı, əzələlərin qıcolması, tənəffüs mərkəzinin iflici, ürəkdayanma və sair hallarda tənəffüs yollarına su dolmadan da suda batma, necə deyərlər, “quru boğulma” halı mümkündür. Unutmayaq ki, insan sudan ağır deyil. Odur ki, üzməyi bacaran sakit, təmkinli adamların dərin çimərliklərdə saatlarla və hətta günlərlə su üzərində qalması heç bir



çətinlik yaratmır.

Təcrübə göstərir ki, beyin toxuması boğulma zamanı baş verən oksigen aclığına ən çoxu 4-5 dəqiqə dözə bilir, ürək əzələsi isə qidasızlığa 10 dəqiqə və daha çox tab gətirir. Məlumatlara görə, suda batandan bir dəqiqə sonra xilas edilənlərin 90 faizinə həyata qayıtmaq nəsib olursa, 6-7 dəqiqədən sonra xilas edilənlərdə isə bu şans 1-3 faizə enir. Odur ki, boğulanı xilasetmə tədbirləri, imkan daxilində, gecikdirilmədən aparılmalıdır.

Üzən adamın suda batana ehtiyatsız yanaşması da təhlükəlidir. “Suda batan saman çöpündən də tutar” məsəli heç də boş yerə deyilməyib. Hər suda batmayan əşya onun üçün ümid çırağıdır. Odur ki, xilas etməyə çalışan insandan yapışaraq özü də istəmədən onu su altına batırmasının mümkünlüyü də inkar edilmir. O, canını qurtarmaq ümidi ilə ona köməyə gələnin ayaq və qolundan yapışmaqla xilasedicinin hərəkətlərini məhdudlaşdıraraq üzməsinə mane olur. Məhz buna görə də suda xilas etmək istədiyin insanla heç vaxt üz-üzə rastlaşmamalısan. Hələ kənardan ona ürək-dirək verərək təmkinli olmasını, dərindən nəfəs alaraq ciyərlərini hava ilə doldurmasını, əl-qolun üzmə hərəkətləri ilə suyun üzündə dayanmağa cəhd etməsini başa salmaq və sualtı ilə, yaxud aralıdan üzərək ona arxadan yaxınlaşmaq lazımdır. Əgər boğulan xilasedicini tutub buraxmır, özü də bilmədən üzməsinə mane olur və özü ilə bərabər aşağı dartırsa, bilərəkdən suya baş vurmaq lazımdır. Boğulanı sudan çıxardıqdan sonra vəziyyətinə müvafiq yardım göstərilməlidir. Belə ki, təcili olaraq onun nəbzi, tənəffüsü, şüuru, tənəffüs yollarının, göz bəbəyinin vəziyyəti yoxlanmalıdır. Sudan xilas edilənin şüuru özündədirsə, nəfəs alır, nəbzi vurur, öskürür, danışırsa, narahat olmağa dəyməz. Sadəcə olaraq onu başıaşağı sallanmış vəziyyətdə quru yerdə uzadaraq bədənini qızdırmaq üçün isidici vasitələrlə (ətir, spirt, odekolon, aseton, kamfora spirti və sair) bədənini, xüsusilə döş qəfəsini ovxalamalı, isti bürmələməli və isti mayelər içirilməlidir.

Zərərçəkənin nəfəs yollarını su, lil və yad cisimlərdən təmizləməyə cəhd edilməlidir. Bunun üçün boğulanı yardım göstərənin dizi üzərindən başıaşağı aşırmalı, bir əllə başı arxaya qatlamaqla nəfəs yollarının düzlənməsinə imkan yaratmalı, ikinci əllə, yaxud başqa adam tərəfindən kürəkləri arasından, qabırğalardan sıxmaqla mayeni xaric etməyə çalışmaq lazımdır. Bu əməliyyatı iki əllə xəstənin qarnından tutaraq yuxarı qaldırmaqla da yerinə yetirmək olar. Boğulan uşaq, yaxud yüngülçəkili adam olarsa, ayaqlardan başıaşağı tutub sallamaqla silkələmək, yaxud qarnını sıxmaqla da mədə və ağciyərdən mayeni boşaltmaq, yaxud qarnı üstə uzatmaq mümkün olmadıqda yanı üstə başı nisbətən aşağı uzadıb, ağzını aralamaq və sıxma hərəkətlərini təkrarlamaq olar.

Ciyərlərdən müəyyən miqdar maye boşaldıqdan sonra canlandırma (reanimasiya) tədbirlərinə başlamaq lazımdır. Reanimasiyanın əsasını süni tənəffüs təşkil edir. Bunun üçün yardım göstərən dərindən nəfəs alaraq təzyiqlə xəstənin burnundan nəfəs yollarına üfürür. Bu zaman xəstənin başını arxaya itələmək, əllə ağzını qapamaq və nəfəsverməni 1 dəqiqədə 14-15 dəfə təkrarlamaq lazımdır. Ürək fəaliyyəti dayandıqda, eyni zamanda ürək masajı da tələb olunur: üst-üstə qoyulmuş ovucların kəfəsi (qalın yeri) ilə xəstənin döş sümüyü (sinəsi) üzərinə bir dəqiqədə 60-70 dəfə (nəbz vurğusuna uyğun) təkanla sıxılır.

*Oxucuların diqqətinə çatdırmaq istərdik ki, yay fəslində asudə vaxtını xoş, səmərəli, xata-bəlasız keçirmək üçün aşağıdakılara əməl edilməsi vacibdir: bələd olmadığın, çimmək üçün ayrılmayan su hövzələrinə girməmək, uşaqları nəzarətsiz buraxmamaq, ümumiyyətlə, su kənarında ehtiyatlı olmalıdırlar.*

**Adil MƏMMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

# Ahıl sakinlər üçün gəzinti təşkil olunub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və sosial könüllülərin iştirakı ilə bir qrup sosial qayğıya xüsusi ehtiyacı olan ahıl sakin üçün təbiət gəzintisi təşkil edilib, burada onlara çay süfrəsi açılıb. Daha sonra ahıl sakinlər Şahbuz şəhərində yerləşən Ahıllar Evində yaradılan şərait və göstərilən xidmətlərlə tanış olublar. Məlumat verilib ki, Ahıllar Evində sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılıb. Həmçinin burada istirahət, idman və əmək terapiyası otaqları, kitabxana da fəaliyyət göstərir.

Qeyd edək ki, görüş nahar süfrəsi ətrafında davam etdirilib, ahıl vətəndaşlar göstərilən diqqət və qayğıya görə razılıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan Texniki İstehsalat Rabitə İdarəsinə məxsus 85 AC 206 dövlət nömrə nişanlı, UAZ-3909 markalı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi bina 2, mənzil 97-də yaşayan Sadiqova Gülçöhrə Qadir qızının adına olan 7237 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Məsul katib:**
**Muxtar MƏMMƏDOV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 727**